2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 13528,5 min ton yük, 87320,5 min sərnişin daşınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,6 faiz, sərnişin daşınması 1,9 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 48 milyon 346 min 100 manat gəlir əldə edilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,1 faiz, sərnişin daşınması 3 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,9 faiz artmışdır.